ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosuna
Azərbaycan Xalq Parlamentinin Seçki Komissiyasının seçkilərin müşahidəsi üçün rəsmi dəvəti
06.04.2026-cı il
Hörmətli xanımlar və cənablar, nəzərinizə çatdırırıq ki, Azərbaycan Xalq Parlamentinin ikinci çağırış seçkiləri 07.04.2026-cı il tarixindən 07.06.2026-cı il tarixinədək keçiriləcəkdir. Azərbaycan Respublikasında son 31 ildə keçirilmiş parlament, bələdiyyə, prezident seçkilərinin, bütün referendumların nəticələri saxtalaşdırılıb. Bu fakt ATƏT və digər beynəlxalq təşkilatlar tərəfindən təsdiqlənib. Ölkəmizdə hakimiyyət avtoritar rejim tərəfindən zəbt edildiyi üçün Azərbaycan Respublikasının siyasi təqiblərə məruz qalmış, daimi yaşayış yerlərini tərk etmək məcburiyyətində qalan vətəndaşları 18.10.2024-cü il tarixdə Azərbaycan Xalq Parlamentinin yaranmasını bütün dünyaya bəyan etdilər. Azərbaycan Xalq Parlamenti təsis olunduğu gündən hakimiyyətin çox saylı təhdid və təzyiqlərinə məruz qalmaqdadır, hətta AzXP-nin Rəyasət heyətinin üzvü, tanınmış vəkil Namizəd Səfərov Parlamentdəki fəaliyyətinə görə şərlənərək həbs olunmuşdur. AzXP Azərbaycan hakimiyyətinin bütün təzyiqlərinə baxmayaraq, azad və demokratik cəmiyyət, insan hüquqlarının tanındığı bir ölkə uğrunda siyasi mübarizəsini davam etdirir.
Ümid edirik ki, dəvətimizi qəbul edəcək və seçki prosesinin müşahidəsində iştirak edəcəksiniz. Əvvəlcədən sizə təşəkkür edir, əməkdaşlığımızın səmərəli, davamlı olmasına inanırıq.

AzXP-nin sədri: İ.Əliyeva
katibi:H.Mustafayev